

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 121 (23.763)

7 iyul 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Yeni müsabiqələr keçirilir

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən iyun ayında müxtəlif istiqamətlər üzrə işə qəbul və attestasiya imtahanlarının keçirilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib.***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 3 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası" təsdiq edilib. Buna uyğun olaraq iyunun 3-də Dövlət İmtahan Mərkəzi tərəfindən 37 dövlət orqanını təmsil edən nümayəndələrin iştirakı ilə "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları" mövzusunda seminar keçirilib. Əvvəlki qaydalardan fərqli olaraq hazırda dövlət qulluqçusu ilin əvvəlində qoyulmuş tapşırıqlar, peşə fəaliyyəti zamanı və iş prosesində bacarıqlarını dəyərləndirmək üçün əsas götürülən meyarlar və əmək intizamına əməletmə vəziyyətinə əsasən qiymətləndirilir. Qiymətləndirilmənin nəticəsinə əsasən dövlət qulluqçusu dövlət orqanının rəhbəri tərəfindən mükafatlandırıla, dövlət qulluqçusuna vaxtından əvvəl ixtisas dərəcəsi verilə və ya aşağı inzibati vəzifəyə keçirilə bilər.

İyunun 7-də dövlət orqanlarında altıncı təsnifat üzrə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 11 mart 2021-ci il tarixdə elan olunmuş müsabiqənin test mərhələsinə start verilib. Müsabiqəyə çıxarılmış 59 vakant vəzifənin tutulması üçün 729 müraciət qeydə alınıb. İyunun 22-nə qədər davam edən test imtahanlarının nəticələrinə əsasən 662 namizəd imtahanda iştirak edib, 285 namizəd isə müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

İyunun 10-da Dövlət İmtahan Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edilib. 213 vakant vəzifənin çıxarıldığı müsabiqəyə sənəd qəbulu iyulun 12-nə qədər davam edəcək. Müsabiqədə iştirak etmək istəyən şəxslər iyulun 12-nə qədər Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər. Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

İyunun 16-da dövlət orqanlarında vakant mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün keçirilən esse imtahanında namizədlərə müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Milli Qurtuluş Günü dövlətçiliyimizin və müstəqilliyimizin xilas tarixidir" mövzusu təqdim edilib. Esse imtahanında iştirak etmək üçün sənəd təqdim etmiş 13 namizəddən 12 nəfəri imtahanda iştirak edib, onlardan 8-i müvafiq keçid balını toplayıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 2019-cu il 8 may tarixli Qərarına əsasən iyunun 10-dan başlayaraq musiqi təhsili müəssisələrində çalışan müəllimlərin attestasiya imtahanlarının müsahibə mərhələsi keçirilib. Müsahibə mərhələsi iyulun 1-dək davam edib.

İyunun 24-də Ədliyyə Nazirliyi əməkdaşlarının attestasiya imtahanı keçirilib. Yerli icra və probasiya qurumlarında çalışan 5 namizədin iştirak etdiyi attestasiya imtahanında iştirakçıların hər biri müəyyən olunmuş keçid balını toplayıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti**

## 26 şagird respublika fənn olimpiadasının qalibi olub

***Muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər məktəblilərin fənn olimpiadalarında da uğurlu nəticələrə nail olmalarına şərait yaradır.***

Növbəti respublika fənn olimpiadası Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla, 8 fənn üzrə IX-XI sinif şagirdlərinin iştirakı ilə keçirilib. Muxtar respublika məktəbliləri olimpiadada 5-i "Qızıl", 13-ü "Gümüş", 8-i isə "Bürünc" olmaqla, ümumilikdə, 26 medal qazanıblar. Ötən il "Qızıl" medalların sayı 4, "Gümüş" medalların sayı 7, ümumi medalların sayı isə 24 olmuşdur.

Olimpiadanın nəticələrinə əsasən Təhsil Nazirliyinə birbaşa tabe məktəblərin şagirdləri 9 medal qazanmaqla muxtar respublika birincisi, Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri 4 medal qazanmaqla muxtar respublika ikincisi, Heydər Əliyev adına Hərbi Liseyin kursantları isə 3 medal qazanmaqla muxtar respublika üçüncüsü olublar.

**Xəbərlər şöbəsi**

## Əmək pensiyalarının maliyyələşdirilməsi başa çatdırılmışdır

Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər vətəndaşların sosial rifahının yaxşılaşmasını təmin etmişdir. Yaradılan yeni müəssisə və iş yerləri əhalinin məşğulluğunu təmin edir, onların gəlirlərinin artmasına səbəb olur. Əhalinin rifahının yüksəldilməsini şərtləndirən bir amil də verilən sərəncamların, fərmanların muxtar respublikada vaxtında və yüksək səviyyədə icra olunmasıdır. Əhalinin sosial durumunun yüksəlməsi həm də dayanıqlı və davamlı inkişafa təminatdır. Sosial-iqtisadi sahədə görülən işlər iqtisadi islahatların dərinləşməsini və bazar iqtisadiyyatı istiqamətində müvəffəqiyyətlə irəliləməsini, əhalinin həyat səviyyəsinin dinamik olaraq yaxşılaşmasını təsdiq edir.

Muxtar respublika iqtisadiyyatının davamlı inkişafı cəmiyyətin başlıca sosial məsələlərdən olan pensiya təminatında mühüm rola malikdir. Vətəndaşların pensiya təminatının təkmilləşdirilməsi, pensiyaçıların həyat səviyyəsinin yüksəldilməsi, maddi rifah halının yaxşılaşdırılması həmişə diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə çevik idarəetmənin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda və onun yerli qurumlarında müasir standartlara uyğun iş yerləri yaradılmış, vətəndaşlara göstərilən xidmət müasir səviyyədə qurulmuşdur. Bunun nəticəsidir ki, hər ay olduğu kimi, iyul ayında da əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılmışdır. Təyin olunan əmək pensiyalarının ödənişi plastik kartlar vasitəsilə pensiyaçılara çatdırılmışdır. İstəklərinə uyğun olaraq kəndlərdə yaşayan əmək pensiyaçıları, yaşadığı məntəqədən kənara getmədən ərazidə yerləşən poçt bölmələri vasitəsilə də pensiyalarını rahatlıqla əldə etmişlər.

Qeyd edək ki, əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər davam etdirilir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Su təminatının yaxşılaşdırılması davam etdirilir

*Muxtar respublikada müasir suvarma sistemlərinin qurulması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilir, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.*



Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün iyun ayında bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 50,2 milyon kubmetr su verilmiş, bunun müqabilində 41 min 998 hektar torpaq sahəsi suvarılmış, 8 kilometr beton və torpaq kanal, 24 kilometr ara arxlar və 6 kilometr kollektor lildən təmizlənmiş, 11 kilometr uzunluğunda yeni suvarma boru xətti çəkilmişdir. Qeyd olunan dövrdə Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 153,7 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni su xətlərinin çəkilməsi sahəsində görülən işlər ötən ay da diqqətdə saxlanılmış, Kəngərli rayonunun Böyükdüz kəndinin 339 hektar ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 10,5 kilometr suvarma xətti çəkilmiş, 150 hovuz və hidrant quraşdırılmışdır.

Muxtar respublikada su təminatının həyata keçirilməsində subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Qeyd olunan dövrdə 103 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

İyun ayında həyata keçirilən tədbirlər sırasında əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması, yaşayış məntəqələrində müasir kanalizasiya şəbəkələrinin qurulması da diqqətdə saxlanılmış, 520 metr yeni içməli su xətti çəkilmişdir. Bu dövrdə "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində, Kəngərli rayonunun Qarabağlar və Yurdçu kəndlərində tikinti işləri davam etdirilmiş, Xok kəndində 6,9 kilometr yeni içməli su xətti çəkilmiş, 232 evin içməli su xəttinə birləşməsi aparılmış, 300 su sayğacı quraşdırılmışdır. Həmçinin Sədərək rayonunun Dəmirçi kəndində içməli su təchizatının yaxşılaşdırılması məqsədilə tikinti işləri davam etdirilmiş, 19,4 kilometr müxtəlif borularla su xətti quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti**

## "STEAM yay məktəbi"nə start verildi

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" 2021-ci il 7 iyun tarixli Sərəncamının icrası istiqamətində görülən tədbirlər çərçivəsində Ağbulaq İstirahət Mərkəzində "STEAM yay məktəbi" təşkil edilib. İyulun 6-da "STEAM yay məktəbi"nin açılışı olub.***



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Gənclər Fondu və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin tapşırığı ilə 2020-2021-ci tədris ilindən etibarən muxtar respublikanın təhsil müəssisələrində pilot olaraq STEAM təhsil metodunun tətbiqinə başlanılmışdır. Ali Məclisin Sədri STEAM təhsil metodunun tətbiqinin əhəmiyyətini, şagirdlərin bilik və bacarıqlarının aşkarlanması və inkişaf etdirilməsindəki rolunu nəzərə alaraq iyunun 7-də "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılacaq, ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılması davam etdiriləcək və hər il şagirdlərin müxtəlif STEAM layihələri əsasında "STEAM təhsil festivalı" keçiriləcəkdir.

Vurğulanıb ki, Sərəncamın icrası istiqamətində 2021-2022-ci tədris ilindən etibarən 7 mindən çox şagird STEAM təhsilinə cəlb olunacaqdır. Çıxışda 6-9 və 13-16 iyul 2021-ci il tarixlərdə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün təşkil edilən "STEAM yay məktəbi" haqqında ətraflı məlumat verilib.

Təhsil naziri təhsildə innovasiyaların tətbiqi üçün yaradılan şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında dövlət gənclər siyasətinin uğurlarından danışaraq qeyd edib ki, son illər muxtar respublikanın ictimai-siyasi, elmi-mədəni həyatında yeniyetmə və gənclərin fəal iştirakı, onlar üçün müxtəlif layihələrin, tədbirlərin, yay məktəblərinin, düşərgələrin təşkili gələcəyimizə qayğıdan xəbər verir.

Cəbi Quliyev əminliyini bildirib ki, "STEAM yay məktəbi" yaxın gələcəkdə doğma Naxçıvanımızda elm sahəsində daha böyük nailiyyətlər əldə edilməsinə səbəb olacaq.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov diqqətə çatdırıb ki, şuranın muxtar respublika rəhbərinin ictimai təşəbbüslərinə qoşularaq onların həyata keçirilməsində iştirakı həmkarlar təşkilatlarının qarşısında duran ümdə vəzifələrdən biridir. Bu mənada, "STEAM yay məktəbi" də gələcəyə – insan kapitalının artırılmasına xidmət edən əhəmiyyətli layihə kimi bundan sonra da davam etdiriləcək. O, yay məktəbinin işinə uğurlar arzulayıb, şagirdləri təbrik edib.

Çıxışlardan sonra tədbir iştirakçıları "STEAM yay məktəbi"nin proqramı və yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, "STEAM yay məktəbi"nin təşkili üçün Təhsil Nazirliyi tərəfindən müəllimlərlə yanaşı, təlimçilər müəyyənləşdirilib, yay məktəbinin 4 günlük proqramı Təhsil Nazirliyi tərəfindən tədris mövzularına uyğun olaraq hazırlanıb. "STEAM yay məktəbi"nin təşkili ilə bağlı Təhsil Nazirliyi tərəfindən şagirdlərin istifadəsi üçün informasiya texnologiyaları vasitələri və digər ləvazimatlar ayrılıb.

4 günlük "STEAM yay məktəbi"ndən hər biri 30 şagird olmaqla, ümumilikdə, 60 şagird yararlana biləcəkdir. Tələbələr üçün isə avqust ayında "STEAM yay məktəbi"nin təşkili planlaşdırılır.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

*Yol uzun, hava isə həddindən artıq isti olsa da, dağ yolları ilə qalxan avtomobildən yaşıllıqlar arasından boylanan müasir Sədərəyi izləmək və bir zamanlar buranın Vətənimizin düşməndən müdafiə səddinə çevrildiyini xatırlamaq qürurvericidir. Vətənimizin hər qarışı bizim üçün əzizdir, amma qədim Azərbaycanın tarixində və taleyində bəzi şəhər və kəndlərimizin xüsusi yeri olub. Belə yurdlardandır ulu öndərin "Qeyrət qalası" adlandırdığı Sədərək. O Sədərək ki illər öncə hər qayası, hər daşı, torpağı naxçıvanlı igidlərin qanı ilə sulandı, amma düşmənə bir ovuc torpaq verilmədi. Həmin yurd ki 30 il öncə torpaqlarımıza göz dikmiş yağı düşmənə ilk zərbə məhz orada endirildi. Və həmin illərdə cəsur oğullarımızın cəsarətindən, igidliyindən qorxuya düşən ermənilər bunu hələ də unuda bilmirlər. Buna 44 günlük Vətən müharibəsində də qürurla şahidlik etdik. Şahid olduq ki, düşmənlərimiz Naxçıvanda yerləşən mövqelərimizə bir güllə belə, atmağa cəsarət etmədilər. Bacarıqsız və səriştəsiz zabitləri tərəfindən Ordubad rayonunun boş, dağlıq ərazisinə atılan raket mərmisinin düşmənin özü kimi heçnəyə yaramamasını isə hamımız qəzəbqarışıq rişxəndlə qarşıladıq.*

***Ordun varsa, yurdun var***

# Ordumuz Vətənimizin varlığının, bütövlüyünün, sülhün ən böyük təminatçısıdır

Bu gün fəxrlə yada salırıq ki, respublikamızda ilk milli ordunun yaradılmasının qərarı Naxçıvan Ali Məclisində verilib. Müharibənin ən çətin günlərində ulu öndərin yurdumuzda olması və o çətin vaxtlarda bizlə birlikdə yaşayıb xalqı birliyə, həmrəyliyə səsləməsi insanları ümidləndirdi, onların gələcəyə inamını artırdı. Yaxşı xatirimdədir, dahi rəhbər yurda qayıdanda hər kəsin dilində bir kəlmə dolaşırdı: "O gəlibsə, deməli, hər iş yaxşı olacaq". Çünki bilirdilər, yaxşı bələd idilər Vətənin dahi oğlunun müdrikliyinə, vətənpərvərliyinə. Və elə də oldu. Əvvəlcə sovet ordusunun silahlarını təhvil verib yurdumuzu tərk etməsi üçün danışıqlar aparıldı, uzaqgörən insanın rəhbərliyi ilə Ali Məclisin



sentyabr ayında keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Qərar verildi. Dahi rəhbər xalqı-ordu quruculuğuna dəstək verməyə səslədi. El bir oldu və kim əlindən nə gəlirdisə əsirgəmədi. 90-cı illərdə neçə-neçə ananın, qız-gəlinin sandığı, mücrüsü açıldı. Məğrur qadınlarımız öz saxlanc yerləri olan sandıqlarından neçə yadigarlarını, xoş günlərinin xatirələrini, toy-duvaq, gəlin üçün əzizlənə-əzizlənə saxlanılan zinət əşyalarını çörəklə yox, silahla, mərmi ilə dəyişdilər. Çünki qeyrətli Azərbaycan anası tapdığı bir ovuc taxılı üyüdüb, yemək üçün ağlayan körpəsini sakitləşdirməyi bacarırdı. Amma mənfur, çörəyimizi yeyib torpağımıza göz dikənləri igid oğullarımız ancaq silahlarla susdura, ata-baba torpaqlarımızdan uzaq tuta bilərdi... Xalqın öz rəhbərinə inamı, yurd, Vətən sevgisi yenə qalib gəldi. Milli ordu yaradıldı. Kiçik özünümüdafiə qrupları həmin ordunun sıralarına daxil edildi. Ordunun yaranmasının birinci ildönümündə – 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilən ilk hərbi paradda ümummilli lider Heydər Əliyev demişdir: ***"Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır. Bu ordunun bir hissəsi də Naxçıvanda yerləşir. Biz bu gün Azərbaycan xalqının gənc və cəsur övladlarının ordu sıralarında xidmət edərək öz bayramlarını qeyd etmək üçün bu meydanda nizamlı sıralarda durduqlarını görürük. Biz milli ordumuzun günü-gündən möhkəmlənməsini, inkişaf etməsini dərk etdikcə bir daha Azərbaycanın müstəqil dövlət olması üçün nə qədər böyük yol keçdiyini yadımıza salır və bunun Azərbaycan xalqı üçün, bugünkü və gələcək nəsillər üçün nə qədər vacib və zəruri olduğunu bir daha hiss edirik. Azərbaycan milli ordusu ağır müharibə şəraitində yaranıb. Qəhrəman oğullarımız Azərbaycanla Ermənistanın sərhəd bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan torpağını, xalqımızın milli azadlığını, toxunulmazlığını müdafiə edərək böyük qəhrəmanlıqlar göstərmiş, bu yolda qurbanlar vermişlər. Azərbaycan xalqı öz milli azadlığını əldə edib. Azərbaycan müstəqil dövlət kimi dünyada tanınıb və heç bir qüvvə xalqımızı bu yoldan geri döndərə bilməz. Lakin biz müstəqil Azərbaycan dövlətini möhkəmləndirmək, onun hərbi qüdrətini daha da yüksəltmək üçün çox böyük və çətin yol keçməliyik. Biz tam əminik ki, bu keçid dövründə, Ermənistanla gedən müharibə şəraitində yaradılmış milli ordumuzun əsgər və zabitləri, bölmə və hissə komandirləri öz döyüş məharətlərini durmadan yüksəldəcək, müasir hərbi elmə inadla yiyələnəcək, torpaqlarımızın etibarlı surətdə müdafiə olunmasını yüksək səviyyədə təmin edəcəklər".***





Həmin hərbi paraddan bir il sonra xalqın təkid və tələbi ilə Bakıya gedən və ikinci dəfə hakimiyyətə qayıdan, xalqımızın səs çoxluğu ilə Prezident seçilən ulu öndər var gücünü sərf edərək, xalqına söykənərək öncə qardaş qırğınının qarşısını aldı, sonra isə gələcəyin müzəffər Ordusu olacaq silahlı qüvvələrin gücləndirilməsinə töhfələr verdi. Bu gün qürur hissi ilə deyirik ki, təməli Naxçıvanda dahi rəhbər tərəfindən qoyulan milli ordumuzun igidləri xalqımızın illərdir, qanayan yarasına məlhəm oldu. Müzəffər Ordu adını qazandı. Vətən müharibəsində qədim yurdumuzun igidləri də buradan Qarabağa üz tutub savaşa qatıldılar, Şuşa, Hadrut fatehi adını aldılar. Dahi rəhbərin layiqli davamçısı, Ata vəsiyyətini yerinə yetirən xalqımızın böyük oğlu Ali Baş Komandanımız cənab İlham Əliyev ulu öndərimizin qələbədən sonrakı ilk ad günündə Naxçıvanımıza səfəri zamanı deyib: ***"Vətən müharibəsi başlayan kimi Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atılıblar, şəhidlər veriblər. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları zəfər yolunu Şuşada tamamlayaraq "dəmir yumruğ"un parlaq qələbəsinin təmin edilməsində müstəsna qəhrəmanlıq göstəriblər... Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan Ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***

Belə qürur dolu düşüncələrlə Sədərəyi üç tərəfdən dövrəyə alan uca dağların başında qurulan postlarda dalğalanan Azərbaycan bayrağının altında Vətənin başlandığı nöqtədə dayanmışıq. Düşmənin beş-on metrliyində Vətənə keşik çəkən, dağlara boyverən oğullarla həmsöhbət oluruq... Müzəffər Ordunun əsgər və zabitləri ilə... İllərdir, həsrətini çəkdiyimiz böyük Qələbəni bizə yaşadan, özləri yaddaşlara yazılan igid oğulların davamçıları ilə...

Fuad İlyasov 16 ildir ki, Vətən keşikçisi kimi şərəfli ad daşıyır. O deyir: "Xalqımızın zəngin və şərəfli hərbi ənənələrini qoruyub saxlamaqla müstəqil dövlətimizdə məqsədyönlü və səmərəli ordu quruculuğunun aparılması, müasir tələblərə cavab verən silahlı qüvvələrin və yüksək mənəvi-psixoloji keyfiyyətlərə malik şəxsi heyətin formalaşdırılması ulu öndər Heydər Əliyevin özünəməxsus müdriklik və uzaqgörənliklə həyata keçirdiyi, Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyət və ardıcıllıqla davam etdirdiyi mükəmməl strategiyaya əsaslanır. Öz gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanı olan Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlət müstəqilliyinin bərpasından ötən illər ərzində çətin sınaqlardan, sözün həqiqi mənasında,



od-alovdan keçmiş, mətinləşmişdir. Və bu gün Azərbaycan əsgəri illər öncə səriştəsiz rəhbərlərin əli ilə düşmənə pay verilən torpaqları qanları, canları bahasına geri qaytarmaqla dünyaya vətənpərvərlik dərsi keçdi. Ordumuzun Şuşa şəhərini azad etməsi müasir döyüş dərsi kimi gələcəyin hərbçilərinə öyrədilir.

Zabit adına layiq görüldüyüm gündən ilk xidmətimə Naxçıvandan başlamışam. Muxtar respublikanın müxtəlif yerlərində xidmətimə davam etmişəm. Vətənimizin hər qarışı bizim üçün əzizdir. Naxçıvan isə xalqımız üçün önəmli bir simvoldur. Tarixin fəxrlə vərəqlədiyimiz səhifələrində Naxçıvanın və Sədərəyin xüsusi yeri var. Milli ordunun ilk qığılcımlarının parladığı və düşmənə layiqli cavab verilən bu diyarda xidmət etmək hər bir əsgər və zabitin fəxridir. Bu zirvədə dayanan hər bir əsgər yaxşı bilir ki, vaxtilə bu dağlarda onlarla Vətən övladı son damla qanına kimi döyüşüb, həyatından keçib, amma bir qarış torpaqdan keçməyib. 90-cı illərdə burada yaşananlar özü bir vətənpərvərlik dərsidir. Bu gün düşmən də yaxşı anlayır ki, qüdrətli, müzəffər Azərbaycan Ordusunun əsgərləri keşik çəkir bu dağlarda".

Əsgər Aslan Bağırov Laçın rayonunun İpək kəndindəndir. Aslan deyir:

– Orada dünyaya göz açmasam da, böyüklərimin Laçın haqqındakı söhbətləri ilə böyümüşəm. Laçınsız laçınlı olsam da, inanmışam bir gün o yurda dönəcəyimizə. Həqiqi hərbi xidmətə gələndən bir neçə ay sonra Vətən müharibəsi başladı və mən Qarabağa getmək üçün komandirlərimə müraciət etdim. Amma üç ayın əsgəri olduğum üçün aparmadılar məni döyüşə. Burada hər dəfə Ali Baş Komandanımızın çıxışını dinlədikcə "Laçın, sən azadsan!" deməyini səbirsizliklə gözləyirdim. Və o gün gəldi, düşmən diz çökdürüldü. Dekabrın 1-i Laçın rayonunun azad edilməsi haqqındakı xəbəri alanda həyatımın ən gözəl anını yaşadım. İndi ən böyük arzum xidmətimi bitirib yurdumuzu görməyə getməkdir.

Babək rayonunun Gülşənabad kəndindən olan əsgər Rafət Məmmədov döyüş növbətçiliyini yoldaşına təhvil verir. O deyir:

– Naxçıvanımızın qeyrət qalası adlandırılan Sədərək rayonunda xidmət etmək hər bir gənc üçün şərəflidir. Qarşımızda düşmən, arxamızda isə dağ kimi dayanan xalqımız var. Biz hər dəfə dönüb arxaya baxanda gündən-günə abadlaşan, gözəlləşən bir yurd, hər gün həyətyanı sahələrdə əkin qayğıları ilə məşğul olan insanları görür, ucsuz-bucaqsız taxıl zəmilərində taxılbiçən kombaynların səsini eşidirik. Biz postlarda ayıq-sayıq dayanırıq ki, yurdumuzun insanları rahat, sakit bir ömür sürsün. Əbəs yerə deməyiblər ki, torpağı əkib-becərmirsənsə, qorumağına, qorumursansa, əkib-becərməyinə dəyməz. Hər dəfə düşmənlə üz-üzə dayananda onlarla erməni əsgərini təkbaşına məhv edən Mübariz İbrahimovu, əsgəri ilə səngərdə bir döyüşən Polad Həşimovu gözlərim önünə gətirirəm. Və düşünürəm ki, biz qalib, düşmənlər isə qaniçən olduqlarına görə öz qanlarında boğulan məğlub bir millətin övladlarıdır. Müzəffər bir ordunun sıralarında müstəqil Azərbaycanımıza xidmət etdiyim üçün qürur duyuram.

Müharibədən qayıtdıqdan sonra müzəffər Ordumuzun sıralarında öz yerlərini tutan hərbi qulluqçularımızla da həmsöhbət olduğumuzda bildirdilər ki, Qarabağda məğlub etdikləri ordu ilə üz-üzə dayanıb xidmət etmək onlara ayrıca bir qürur yaşadır.

***Son söz əvəzi***

Axşam düşür, şəhərə qayıtmağa hazırlaşırıq, düşmənin 10-15 metrliyimizdə yerləşən postuna sarı baxıram. Cəbhə bölgəsində yaşadığım illərdə düşmən postlarını uzaqdan müşahidə etmişdim, bu gün isə onları lap yaxından görürəm "Yenilməz", "müasir" erməni ordusunu. Sovetlər dövründə məhəlləmizin qurtaracağında yerləşən, xarabazarlığı xatırladan bir təpənin başında palçıq kərpicdən inşa edilən "müdafiə postları"ndan onlar bir güllə belə, atmağa cəsarət etmirlər... Məğlub olmaq, məğlub bir ordunun fərdinə çevrilmək hissləridir onların cəsarətini qıran. Babalarının "böyük Ermənistan" xəyallarının puça çıxmasıdır, bəlkə də, vaxtilə burada ağzının payını alıb, geriyə qaçan, indi Naxçıvanın adı gələndə zağ-zağ əsən atalarının xislətləridir onları belə vəziyyətə salan.

Müstəqilliyimizi qazandığımız gündən və milli ordunun yarandığı vaxtan ötən dövr ərzində ilk dəfədir ki, Silahlı Qüvvələr Gününü daha böyük bir qürurla qeyd etdik. Həmin gün ərəfəsində Vətən müharibəsində xüsusi cəsurluq və rəşadət göstərən, canından keçən əziz oğullarımızın orden və medalları ailələrinə təqdim edildi. Bir neçə şəhid ailəsi isə mənzillə təmin olundu. Şəhidlərimizin ruhu hər zaman şaddır, çünki bu diyarda onların ailələri qayğı ilə əhatə edilir. Vətən müharibəsi iştirakçılarının da sevinci sonsuz idi, onlar da Vətənə xidmətin ən gözəl mükafatını almışdılar. Qələbənin mükafatını fəxrlə daşıyacaqları orden və medalları.

*Müstəqil Azərbaycanımızın müzəffər Ordusunun şəhid qanı, qazi canı ilə Şuşada, Laçında, Qubadlıda, Qarabağımızda göylərə yüksəltdiyi bayrağımız azad səmamızda məğrur-məğrur dalğalandıqca bu yolda canından keçən igidlərin də ruhu daim şad olacaq. Biz bundan sonra da qalib xalq kimi yaşayacağıq, çünki bu xalq, bu millət heç vaxt məğlub ola bilməz. Çünki hər bir fərdimizin damarında qanla birlikdə Vətən sevgisi axır.*

**Ramiyyə ƏKBƏROVA**

*Muxtar respublikamızda rəssamlığın inkişafı onun ictimai qurum kimi təşkilatlanmasından xeyli əvvəlki dövrləri əhatə edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamda qeyd olunduğu kimi: "Naxçıvanda rəssamlıq sənəti böyük inkişaf yolu keçmişdir. Tarixi Gəmiqaya təsvirlərindən başlayan Naxçıvan rəssamlıq sənəti XII əsrdən etibarən memarlıq məktəbinin təsiri ilə inkişaf etmişdir. XX əsrin əvvəllərində Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli Naxçıvan rəssamlıq məktəbinə yeni ictimai məzmun qazandırmış, onu forma və təsvir vasitələri ilə zənginləşdirmişdir".*




***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50***

# Naxçıvanda rəssamlıq sənəti inkişaf yolundadır





Ötən əsrin əvvəllərində Naxçıvanda təsviri sənətin milli boyakarlıq janrının banisi Bəhruz Kəngərli kimi qüdrətli sənətkar yetişsə də, bütövlükdə, rəssamlığın inkişafına lazımi diqqət göstərilməmişdir. Hətta sərgi salonu olmadığından Bəhruz Kəngərlinin öz əsərlərini yol kənarına düzüb nümayiş etdirməsi barədə onun müasirlərinin xatirələri dövrümüzə qədər gəlib çatmışdır.

Hər bir sənət sahəsi kimi rəssamlıq da diqqət və qayğı tələb edir. Azərbaycan boyakarlığı XX əsrin 70-ci illərində görkəmli dövlət xadimi Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra bu qayğını hiss etməyə başlamışdır. Həmin tarixdən ötən dövr Azərbaycan təsviri sənətinin də inkişaf və yüksəliş dövrüdür. Ulu öndərimiz deyirdi: ***"Azərbaycan rəngkarlıq, təsviri sənət məktəbi dünyada layiqli yer tutmuşdur. Tarixən qısa bir vaxtda Azərbaycanda gözəl, güclü təsviri sənət məktəbi, rəngkarlıq məktəbi təşəkkül taparaq yaranmışdır".*** Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin bütün dövrlərində rəssamlıq sənəti üstün istiqamət verən sahələrdən olmuş, milli mədəniyyətin və təsviri sənətin inkişafında yeni mərhələ başlamış, yaradıcılıq təşkilatlarının fəaliyyəti üçün zəruri tədbirlər görülmüş, onların maddi-texniki bazaları gücləndirilmiş, 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı yaradılmışdır.

Ulu öndərin əsasını qoyduğu ənənələrin 1995-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilməsi nəticəsində təsviri sənətdə də əsaslı dönüşə nail olunmuşdur. Belə ki, Azərbaycanın ilk realist rəssamı, professional dəzgahlı boyakarlığının banisi Bəhruz Kəngərli Muzeyi, muxtar respublika Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonu yaradılmış, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Təsviri incəsənət və rəsmxət, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisasları açılmışdır. Hazırda Naxçıvan Dövlət Rəsm Qalereyası, Mədəniyyət və Təhsil nazirliklərinin nəzdində 9 məktəbdənkənar təhsil ocağında və 3 uşaq incəsənət və bədii sənətkarlıq məktəbində rəsm ixtisası və dərnəklər fəaliyyət göstərir. Son illər əsaslı şəkildə yenidənqurmadan sonra istifadəyə verilən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq və Estetik Tərbiyə mərkəzlərində gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılmışdır.

Qeyd edək ki, artıq 1970-ci ildə muxtar respublikada kifayət qədər ittifaq üzvü olan rəssamların yaşaması onların yerli təşkilatda birləşməsi zərurəti yaratdı. Ulu öndər Heydər Əliyev 1971-ci ilin iyun ayında Naxçıvan Rəssamlar Təşkilatının yaradılmasına hazırlıq işlərinin tamamlanması barədə hökumət strukturlarına və Rəssamlar İttifaqına göstəriş verir. Yeni təşkilatın sədri vəzifəsinə gənc teatr rəssamı Məmməd Qasımovun namizədliyi irəli sürülür. Təşkilat 10 nəfər rəssamla fəaliyyətə başlayır. Sonralar Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatına respublikada fəaliyyət göstərən tanınmış rəssamlar Şamil Mustafayev, Abazər Qardaşbəyov, Mircəlil Seyidov, Babək Abazərli, Hüseynqulu Əliyev sədrlik etmişlər.

Ali Məclis Sədrinin qayğısı ilə 2000-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı ləğv olunaraq onun bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılmışdır. Ali Məclis Sədrinin 2001-ci il 15 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilmişdir. Bir qədər sonra Ali Məclis Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə Bəhruz Kəngərli Muzeyi yaradılmış və 18 iyun 2002-ci ildə muzeyin açılışı olmuşdur. Açılış mərasimində görkəmli dövlət xadimi Heydər Əliyev şəxsən iştirak etmiş və rəssamın həyat və yaradıcılığı, əsərlərinin tədqiqi sahəsində qarşıda duran vəzifələr haqqında geniş nitq söyləmişdir. Birliyin 2011-ci ilin mart ayında keçirilən III konfransında yeni Nizamnaməsi qəbul olunmuş, təşkilat yeni yaradıcı qüvvələr hesabına gücləndirilmiş, Rəssamlar Birliyinin fəaliyyət göstərdiyi iş otaqları və Bəhruz Kəngərli adına Sərgi Salonu əsaslı şəkildə təmir edilmişdir.

Belə qayğı müntəzəm olaraq davam etdirilmiş, Ali Məclis Sədrinin 2011-ci il 23 iyul tarixli Sərəncamı ilə birliyin 40 illik yubileyi keçirilmiş, birlik Ali Məclis Sədrinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Rəssamlar Birliyinin 26 iyul 2011-ci ildə keçirilmiş 40 illik yubiley sərgisində Ali Məclisin Sədri cənab Vasif Talıbov tövsiyə xarakterli çıxış edərək demişdir: ***"Bu sahəyə ona görə diqqət göstərilir ki, Rəssamlar Birliyi muxtar respublikanın ictimai həyatında fəal iştirak etsin, yeni rəssamlar yetişdirilsin, Bəhruz Kəngərli ilə başlanan yol davam etdirilsin. Bu gün muxtar respublikamızda professional rəssamlar fəaliyyət göstərir. Onlar təkcə ölkəmizdə deyil, Azərbaycandan kənarda da tanınırlar, müxtəlif ölkələrdə sərgiləri təşkil olunur. Bu sahənin daha da inkişaf etdirilməsi üçün rəssamların üzərinə mühüm vəzifələr düşür. Tarixin yaşadılması baxımından rəsm əsərləri mühüm əhəmiyyət daşıyır. Vaxtilə Bəhruz Kəngərlinin, Şamil Qazıyevin çəkdiyi rəsm əsərlərində Naxçıvanın tarixi, abidələri, adət-ənənələri öz əksini tapmışdır. Naxçıvanın təbiəti, tarixi abidələri rəssamlar üçün mövzu, hər bir guşəsi isə bir rəsm əsəridir".***

Ali Məclis Sədrinin çıxışından irəli gələn tövsiyə və tapşırıqları özünə proqram kimi qəbul edən Naxçıvan Rəssamlar Birliyi fəaliyyətini bu istiqamətdə quraraq daha böyük nailiyyətlər əldə etməyə çalışır.

Belə ki, 2011-ci ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin şəxsi saytı və "Facebook" səhifəsi fəaliyyətə başlamışdır. Həmin ildən Rəssamlar Birliyinin üzvlərinə muxtar respublika rəhbəri tərəfindən emalatxanalar verilmiş və ildə üç rəssam yaradıcı insanlar üçün təsis edilmiş təqaüd ilə mükafatlandırılmışdır. Rəssamlarımızın maddi durumunun yaxşılaşdırılması istiqamətində də mühüm işlər görülmüşdür.

2012-ci ildən başlayaraq qədim diyarımızda "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm Festivalına start verilmişdir. Uğurla nəticələnən və bir çox ölkələrdən xoş sədası gələn bu festivalın iki ildən bir keçirilməsi nəzərdə tutulub. Belə ki, 2014-cü ildə II, 2016-cı ildə III və 2018-ci ildə IV Beynəlxalq Rəsm Festivalı keçirilmişdir. V Festivalı isə 2020-ci ilə planlaşdırılsa da, dünyanı bürüyən pandemiyaya görə təxirə salınmalı olmuş, 2021-ci ilin may ayında – ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə keçirilmiş, əsl sənət bayramı kimi tarixə düşmüşdür. Festivallarda, ümumilikdə, dünyanın 16 ölkəsindən nümayəndə olmaqla, 254 rəssam iştirak etmişdir. Ənənə olaraq hər festivalın ayrı-ayrılıqda kataloqları çap olunmuş və festival iştirakçılarına göndərilmişdir.

12 iyun 2013-cü il Naxçıvan Rəssamlar Birliyinin tarixində ən əlamətdar günlərdən biri olmuşdur. Belə ki, Naxçıvan şəhərinin mərkəzində, Heydər Əliyev prospekti 38 ünvanında birlik üçün zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət müasir tələblərə cavab verən yeni bina inşa edilmişdir.

Növbəti sevindirici hadisə isə Rəssamlar Parkının yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 noyabr tarixli Sərəncamı olmuşdur. Həmin Sərəncama əsasən Naxçıvan şəhəri "İstiqlal" küçəsi 52 ünvanında Bəhruz Kəngərlinin heykəli qoyulmaqla, görkəmli rəssamın adına Rəssamlar Parkı yaradılmışdır. Park 24 may 2016-cı ildə, III Beynəlxalq Rəsm Festivalı ərəfəsində festivala gələn qonaqların iştirakı ilə Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən açılmış və sənətsevərlərin istifadəsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamından irəli gələn məsələlərdən biri kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin etməkdir. Bu Sərəncamda qarşıya qoyulan vəzifələrdən biri kimi Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun müvafiq ixtisaslarını hamiliyə götürmüş və Ali Məclis Sədri tərəfindən təsdiq olunmuş Tədbirlər Planına əsasən həmin ali məktəblərin rəssamlıq təhsili alan tələbələr ilə mütəmadi olaraq işlər aparılır, tədbir və sərgilər keçirilir. Əlavə olaraq hər ay muxtar respublikada fəaliyyət göstərən uşaq-gənclər yaradıcılıq mərkəzlərində və incəsənət məktəblərində birlik üzvləri tərəfindən ustad dərsləri təşkil edilir.

Muxtar respublikamızda yaradılan şəraitə əsasən gənc və qabiliyyətli uşaqların üzə çıxarılmasına Rəssamlar Birliyi də öz töhfəsini verməkdədir. Belə ki, 2020-ci ildə birliyin nəzdində Gənc rəssamlar bölməsi yaradılmışdır. Hazırda bölmənin 25 üzvü vardır.

Muxtar respublika rəhbərinin daim diqqətində olan rəssamlarımız böyük qayğı ilə əhatə ediliblər. Belə ki, fəaliyyətləri ilə fərqlənən rəssamlarımız fəxri adlara layiq görülür, görkəmli rəssamlarımıza yubileylər keçirilir, onların kitab, albom-kataloqları çap olunur, sərgiləri təşkil edilir. Buna misal olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə görkəmli rəssam Bəhruz Kəngərlinin 120, Əməkdar incəsənət xadimi Şamil Qazıyevin 100, görkəmli Azərbaycan rəssamı İbrahim Səfiyevin 120 illik yubileyləri təntənəli şəkildə keçirilib və albom-kataloqları çap olunub.

Hazırda Naxçıvan Rəssamlar Birliyinin 56 üzvü var. Onlardan bir nəfəri "Xalq rəssamı", üç nəfəri "Azərbaycan Respublikasının Əməkdar rəssamı", bir nəfəri "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi", altı nəfəri isə "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı" fəxri adları ilə təltif olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi son illərdə beynəlxalq əlaqələrini də xeyli genişləndirmişdir. Belə ki, üzvlərimiz birlik tərəfindən bir çox xarici ölkələrdən dəvətlər almış və orada təşkil olunan sərgilərə, müsabiqələrə, festival və simpoziumlara qatılaraq belə mötəbər tədbirlərdə yurdumuzu layiqincə təmsil etmişlər. Bu ölkələrin siyahısına Bolqarıstan, Fransa, İran, Türkiyə, ABŞ, Portuqaliya, Çin, Avstriya, Rusiya, Ukrayna və digər ölkələr daxildir.

*Bu il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yaradılmasından 50 il ötür. Biz Naxçıvanda yaşayıb-yaradan rəssamlar rəssamlıq tariximizlə, keçmişdə fəaliyyət göstərən rəssamlarımızla fəxr edir, daim irəliyə baxırıq. Doğma diyarımızın günü-gündən çiçəklənməsi – sosial-iqtisadi tərəqqisi, geniş vüsət alan bərpa-quruculuq işləri bizi həvəsləndirir, yeni əsərlər işləməyə sövq edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı 2021-ci il 3 mart tarixli Sərəncamı və təsdiq olunmuş Tədbirlər Planı məsuliyyət hissimizi bir qədər də artırıb. Ona görə də Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi, onun İdarə Heyəti muxtar respublika rəhbərinin diqqət və qayğısı müqabilində fəaliyyətini daha da gücləndirəcək, yaradılmış şəraitdən səmərəli istifadə etməklə mədəniyyətimizin inkişafına öz töhfəsini verəcəkdir.*

**Ülviyyə HƏMZƏYEVA**
***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı***

## Mükafatlandırma mərasimi olub

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən təşkil olunan "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" adı uğrunda müsabiqədə qalib gəlmiş "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti Təhlükəsizlik İdarəsinin əməkdaşları mükafatlandırılıb. Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Eyvaz Əsgərov açaraq müsabiqənin və qazanılan uğurun əhəmiyyəti barədə ətraflı məlumat verib.



Tədbirdə "Naxçıvan Dəmir Yolları" MMC-nin direktoru Mahir Əliyev çıxış edərək dəmir yollarının təhlükəsizliyi sahəsində görülən işlərdən danışıb, yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıq edib. Bildirilib ki, bu gün muxtar respublikamızda elə bir müəssisə, təşkilat, xidmət və istehsal sahəsi tapa bilməzsən ki, orada əməkçi insanlar üçün münbit iş şəraiti yaradılmasın. Belə şəraitin nəticəsində "Naxçıvan Dəmir Yolları" MMC Təhlükəsizlik İdarəsi üzrə sağlam həyat, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi istiqamətində bir çox səmərəli tədbirlər reallaşdırılır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov bildirib ki, əməyin mühafizəsi və təhlükəsizliyi şuranın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Şuranın Tədbirlər Planına uyğun olaraq ilk təşkilatlarda, xüsusilə əməyin mühafizəsinə ciddi ehtiyac duyulan müəssisələrdə olur, maarifləndirici tədbirlər keçirir, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hər il "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi altında təşkil olunan müsabiqələrdə iştirak edirlər.

Qeyd edilib ki, "Naxçıvan Dəmir Yolları" MMC-nin Təhlükəsizlik İdarəsi 2020-ci il üçün nəzərdə tutulan müsabiqədə fəal iştirak edib, təşkilatın fəaliyyətini əks etdirən sənədlər Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının İcraiyyə Komitəsinin 2021-ci il 3 may tarixli Qərarı ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına göndərilib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Qərarına əsasən həmin idarə "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi – 2020" adı uğrunda respublika müsabiqəsinin qalibi olub.

Təhlükəsizlik İdarəsinin kollektivini təbrik edən Anar İbrahimov uğurun əldə olunması, eləcə də sağlam və təhlükəsiz əmək şəraitinin formalaşması üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib.

Sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən müsabiqədə qalib gəlmiş "Naxçıvan Dəmir Yolları" MMC Təhlükəsizlik İdarəsinin kollektivinə fəxri diplom və qiymətli hədiyyə, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən isə bir qrup əməkdaşa Fəxri fərman və pul mükafatı verilib. İdarənin rəisi Səxavət Kazımov verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq edib, dəmir yolları sahəsində sağlam və təhlükəsiz əmək şəraitinin formalaşması üçün bundan sonra da səylə çalışacaqlarını diqqətə çatdırıb.

✍ **Nail ƏSGƏROV**

Estafet

## Arzuları çin olan zabit



Vətən müharibəsinin bitməsindən aylar ötsə də, hələ tanımalı neçə-neçə igidimiz var ki, ömürlərini Vətənə xidmətə həsr ediblər. Onların hər birini tanıdıqca insan qürurdan dağa dönür. Bu gün qələmim ömrünün 27 ilini Vətənə xidmətə həsr edən bir zabitimizi tanıtdırmaq üçün yazır.

Babək Allahverdiyev 1976-cı il avqustun 15-də Kəngərli rayonunun Qarabağlar kəndində dünyaya göz açıb. Atası Asəf əmi ona tarixdə hamının çox yaxşı tanıdığı Babəkin adını vermişdi ki, oğlu da xalq qəhrəmanı kimi igid olsun. İnsan adı ilə bütünləşirmiş. Babək hələ uşaq yaşlarından öz yaşıdlarından düşüncə tərzi, nümunəvi davranışı ilə seçilirdi. Orta məktəbi əla qiymətlərlə bitirən Babək ali məktəbə qəbul olsa da, təhsilini yarımçıq qoyub Vətənin keşiyində durmaq üçün 1994-cü ildə əsgər gedir. Əsgəri xidməti dövründə o artıq öz ixtisasını seçmişdi. Babək anlayırdı ki, elə mübarizəsi ilə tarix yazan adaşı Babək kimi onun da ən ülvi vəzifəsi doğma Azərbaycanın keşiyini çəkməkdir. Öz istəyini komandirlərə bildirən Babək Türkiyə Respublikasında Quru Qoşunlarının Ali Hərbi Komandir Məktəbinə sənəd verir. İmtahanlardan müvəffəqiyyətlə keçir və Ankara şəhərində fəaliyyət göstərən Ali Hərbi Məktəbə qəbul olunur. Təhsil aldığı dörd il müddətində qarşısına bir məqsəd qoyur: mən bütün hərbi sirləri mükəmməl öyrənəcəyəm, bu biliklər də məni Qarabağa aparacaq. O, 1999-cu ildə hərbi məktəbi birinciliklə bitirir. Türkiyədə təhsil aldığı müddətdə Babək türk, rus və ingilis dillərini də mükəmməl öyrənir. 2000-ci ildən Azərbaycan Respublikasının ordu sıralarında zabit kimi xidmət etməyə başlayır. O hər zaman çalışır ki, həm əsgərləri ilə yaxın dost olsun, həm də onları bu Vətənə layiqli, nizam-intizamlı əsgərlər kimi yetişdirsin.

Babək Allahverdiyev müxtəlif dövrlərdə Azərbaycanı başqa ölkələrdə yüksək səviyyədə təmsil edib. Macarıstan Respublikasının Zrini Miklos adına Beynəlxalq Müdafiə Universiteti nəzdində sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Hərbi ingilis dili təlim mərkəzində ingilis dili kursu (2003), Türkiyə Respublikasının Ankara şəhərində Türkiyə sülh naminə tərəfdaşlıq təlim mərkəzində Birləşmiş Millətlərin hərbi müşahidəçi kursunu (2005), Almaniyada NATO məktəbinin nəzdində Çoxmillətli maddi-texniki təminat kursunu (2006), Bolqarıstanda NATO strukturları üzrə Birləşmiş qərargah kursunu (2007) müvəffəqiyyətlə keçib. 2012-ci ildə isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına qəbul olunub və 2014-cü ildə Hərbi və dövlət idarəetməsi ixtisaslaşması üzrə magistr dərəcəsi alıb. Polkovnik-leytenant rütbəsinə qədər yüksələn Babək Allahverdiyev müxtəlif dövrlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10, 90, 95 illik yubiley medalları, Silahlı Qüvvələrimizin 85 illiyi münasibətilə isə döş nişanı, həmçinin "Qüsursuz xidmətə görə" III, II və I dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin veteranı" medallarına layiq görülüb.

2020-ci ilin 27 sentyabrında başlayan və tarixi qələbə ilə bitən Vətən müharibəsində Babək də öz əsgərləri ilə ön cəbhəyə yollanıb. Yetişdirdiyi, illərlə təlim keçdiyi əsgərləri, zabitləri ilə çiyin-çiyinə döyüşüb. Göstərdiyi şəxsi şücaət və qəhrəmanlıqlarına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Vətən müharibəsi iştirakçısı" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib. Amma onun ən böyük mükafatı doğma, gözəl Qarabağda xidmət etməsi idi. Babək Allahverdiyevin arzusu çin olub. İndi onun qollarına Vətən torpağının gücü, gözlərinə azadlığın işığı hopub. Belə zabitlərimizin sayəsində bu Vətən daim var olacaq.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququnu pozma hansı məsuliyyətə səbəb olur?*

**Cavab:** Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmçinin Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma bir ildən üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Yuxarıda qeyd olunan əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə isə üç ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməllər təkrar və ya şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə isə beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

İnzibati xətalar qanunvericiliyinə əsasən torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir. Qeyd olunan xətanın kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədilməsinə görə fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir. Mülkiyyətdə və ya istifadədə (icarədə) olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsinə görə isə yetmiş manatdan doxsan manatadək məbləğdə cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/s | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 6469 | 478,7 | 478,7 | 100,0 |
| 2. | Şərur rayonu | 1835 | 130,2 | 130,2 | 100,0 |
| 3. | Babək rayonu | 2308 | 165,1 | 165,1 | 100,0 |
| 4. | Ordubad rayonu | 1314 | 93,6 | 93,6 | 100,0 |
| 5. | Culfa rayonu | 1545 | 111,6 | 111,6 | 100,0 |
| 6. | Kəngərli rayonu | 742 | 54,2 | 54,2 | 100,0 |
| 7. | Şahbuz rayonu | 411 | 29,4 | 29,4 | 100,0 |
| 8. | Sədərək rayonu | 520 | 36,7 | 36,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 30370 | 2733,3 | 2732,9 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **45514** | **3832,8** | **3832,4** | **100,0** |

**Qeyd:** İyun ayında texniki itki nəzərə alınmaqla verilən 45 milyon 514 min kilovat saat elektrik enerjisinin dəyəri 3 milyon 832 min 800 manat olmuş, cəmi 3 milyon 832 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Dövlət Universiteti

### *2021-2022-ci tədris ili üçün doktorantura və dissertanturaya qəbul elan edir*

Naxçıvan Dövlət Universiteti Nazirlər Kabinetinin 22 iyun 2021-ci il tarixli 356 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş qəbul planına əsasən aşağıdakı ixtisaslara doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir.

***Cədvəl 1. Fəlsəfə doktoru***

| | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | |
| 2002.01 | Deformasiya olunan bərk cisim mexanikası | | | | 1 |
| 2212.01 | Nəzəri fizika | 1 | | 1 | |
| 2307.01 | Fiziki kimya | 1 | | 1 | |
| 2411.01 | İnsan və heyvan fiziologiyası | 1 | | 1 | |
| 2417.01 | Botanika | 1 | | 1 | |
| 3225.01 | Şüa diaqnostikası və terapiyası | 1 | | 1 | |
| 3226.01 | Stomatologiya | | | | 1 |
| 3238.01 | Qastroenterologiya | | | | 1 |
| 3243.01 | Patoloji fiziologiya | 1 | | 1 | |
| 3304.01 | Kompüter qurğuları və texnologiyası | 1 | | 1 | |
| 3305.02 | İnşaat mexanikası | 1 | | 1 | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 4 | 2 | 2 | |
| 5310.01 | Dünya iqtisadiyyatı | 1 | | 1 | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 2 | | 2 | |
| 5502.01 | Ümumi tarix | 1 | | 1 | |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | |
| 5505.02 | Arxeologiya | 1 | | 1 | |
| 5606.01 | Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi | 1 | | 1 | |
| 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | 1 | | 1 | |
| 5613.01 | Məhkəmə hakimiyyəti; prokurorluq və vəkillik fəaliyyəti, hüquq-mühafizə fəaliyyətinin təşkili | | | | 1 |
| 5706.01 | Azərbaycan dili | 1 | | 1 | |
| 5708.01 | German dilləri | | | | 1 |
| 5709.01 | Roman dilləri | | | | 1 |
| 5711.01 | İran dilləri | 1 | | 1 | |
| 5713.01 | Sami dilləri | 1 | | 1 | |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid | 1 | | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | |
| 5720.01 | Jurnalistika | 1 | | 1 | 1 |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 3 | | 3 | |
| 5901.01 | Beynəlxalq münasibətlər | 2 | | 2 | 1 |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 1 | | 1 | |
| 6213.01 | Musiqi sənəti | 1 | | 1 | 1 |
| 6215.01 | Təsviri sənət | 1 | | 1 | |

**Cədvəl 2. Elmlər doktoru**

| | Elm sahələri və ixtisaslar | Elmlər doktoru proqramı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | o cümlədən | | |
| | | | əyani | qiyabi | |
| 2307.01 | Fiziki kimya | 1 | | 1 | |
| 2417.01 | Botanika | 1 | | 1 (NMİ üçün məqsədli yer) | |
| 2432.01 | Bioloji ehtiyatlar | | | | 1 |
| 3215.01 | Mamalıq və ginekologiya | | | | 1 |
| 3216.01 | Endokrinologiya | | | | 1 |
| 5308.01 | Ümumi iqtisadiyyat | | | | 1 |
| 5312.01 | Sahə iqtisadiyyatı | | | | 1 |
| 5401.01 | İqtisadi coğrafiya | | | | 1 |
| 5503.02 | Vətən tarixi | | | | 2 |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | 2 ("Naxçıvan" Universiteti üçün 1 məqsədli yer) |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası | | | | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | | | | 1 |

Sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Xarici dil imtahanında müvəffəqiyyət qazanmış və doktoranturaya sənəd vermək istəyən namizədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olaraq "Ali və orta ixtisas təhsili müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçməli və təlimatlara (Doktoranturaya (vətəndaş və əcnəbi) qəbulun elektron qeydiyyatı, ali təhsil müəssisələrinə doktorant qəbulu üzrə e-müraciət sistemi təlimatı) uyğun olaraq qeydiyyatdan keçməlidirlər. Qeydiyyat üçün son tarix 15 iyul 2021-ci ildir.

***İtmişdir***

"Miraj Gold" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus möhür itdiyindən etibarsız sayılır.

***

Babək rayon Aşağı Buzqov kənd sakini Nəcəfova Nargilə Sadıq qızının adına olan JN-178A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 538